*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

23 may 2026-cı il №19 (9173) www.muallim.edu.az muallim@media.edu.az


## Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq




**Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir.**

**2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.**

**Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək.**

**İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı “Qafqazın Xirosiması” adlandırırdılar.**

**Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir.**

*Prezident İlham Əliyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimindəki çıxışından*

### Bakı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dövründə dünyanın paytaxtına çevrilir



**Mən böyük şərəf hissi ilə tarixi Bakı şəhərində sizin qarşınızda dayanmışam. Burada - qədim İpək Yolunun üzərində və Xəzər dənizinin sahilində yerləşən şəhərdə sizin qarşınızda çıxış edirəm. Mən ən səmimi salamlarımı Azərbaycan hökumətinə və Azərbaycan xalqına çatdırıram. Bizə göstərilmiş səmimi qonaqpərvərliyə və bu tədbirin keçirilməsinə görə təşəkkürümü bildirirəm... Zati-aliləri, Bakı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dövründə dünyanın paytaxtına çevrilir.**

### Ümid edirəm ki, biz Bakıdan bu inamla ayrılacağıq...



**Yeni Şəhərsalma Gündəliyinin aralıq icmalı həm bugünkü şəhər problemlərinin aktuallığını, həm də Kitoda verilmiş öhdəliklərin davamlı əhəmiyyətini təsdiqləməlidir. WUF13 praktiki fəaliyyət, tərəfdaşlıq və investisiyalar vasitəsilə icranı sürətləndirmək üçün bir fürsətdir. Artıq diqqəti həll yollarına yönəltməyin vaxtıdır... Ümid edirəm ki, biz Bakıdan bu inamla ayrılacağıq: bugünkü qlobal çağırışlara baxmayaraq, adekvat mənzil hər kəs üçün istisnasız olaraq əlçatan ola bilər.**






## “Ortaq gələcək üçün təhsil: sülh, planet, məqsəd və inkişaf”



Elm və təhsil naziri Emin Əmrullayev Böyük Britaniyada təhsil alan Dövlət Proqramı tələbələri ilə görüşüb

Bax səh.2

## Təhsil uğura gedən yoldur

“Zəkaların mübarizəsi II” olimpiadasının final mərhələsi keçirilib

Bax səh.3



### Təhsil krediti ilə oxudu

Bax səh.4

### Universitetlərimizin şəhərsalma strategiyasına töhfəsi

Bax səh.5

### Uşaqlar kitabların sehrinə düşdülər

Bax səh.6

### Universitetlər məzunlarında hansı bacarıqları inkişaf etdirməlidirlər?

Bax səh.7

# "ORTAQ GƏLƏCƏK ÜÇÜN TƏHSİL: SÜLH, PLANET, MƏQSƏD VƏ İNKİŞAF"

## Dünya Təhsil Forumunda iştirak edən elm və təhsil naziri bir sıra görüşlər keçirib














### Emin Əmrullayev Böyük Britaniyada təhsil alan Dövlət Proqramı tələbələri ilə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Dünya Təhsil Forumunda iştirak məqsədilə Londonda işgüzar səfər edib.

Səfər çərçivəsində 2022—2028-ci illər üçün Dövlət Proqramı üzrə Böyük Britaniyada təhsil alan azərbaycanlı tələbələrlə görüş keçirilib. Görüşdə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov da iştirak edib.

Görüş zamanı Dövlət Proqramının perspektivləri, beynəlxalq təhsil təcrübəsinin insan kapitalının inkişafına töhfəsi, eləcə də məzunların ölkənin elm, təhsil və innovasiya ekosistemində rolu ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Emin Əmrullayev xaricdə təhsil alan azərbaycanlı gənclərin əldə etdikləri bilik və bacarıqların ölkənin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Nazir tələbələrin akademik fəaliyyəti, gələcək planları və qarşılaşdıqları məsələlərlə maraqlanıb, onları akademik və peşəkar inkişaf istiqamətində fəal olmağa təşviq edib.

Qarşılıqlı müzakirə şəraitində keçən görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb, fikir və təklifləri dinlənilib, həmçinin onların təhsillərini başa vurduqdan sonra Azərbaycanda mövcud karyera və iş imkanları ətrafında fikir mübadiləsi aparılıb.

### Dünya Təhsil Forumunda

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti 17-20 may 2026 - cı il tarixlərində Böyük Britaniyanın London şəhərində keçirilən Dünya Təhsil Forumunda iştirak edib.

Forum "Ortaq gələcək üçün təhsil: sülh, planet, məqsəd və inkişaf yolları" mövzusuna həsr olunub.

Forum çərçivəsində dünyanın müxtəlif ölkələrindən təhsil nazirləri, beynəlxalq təşkilatlar və strateji tərəfdaşlar bir araya gələrək inklüziv, keyfiyyətli və gələcəyə yönəlmiş təhsil sistemlərinin qurulması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və müasir çağırışlara uyğun həll yollarının müzakirəsini aparıblar.

### Elm və təhsil naziri misirli həmkarı ilə görüşüb

Mayın 18-də Dünya Təhsil Forumu çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Misir Ərəb Respublikasının təhsil və texniki təhsil naziri Mohamed Abdel Latif ilə görüşüb.

Görüş zamanı tərəflər təhsil sahəsində əməkdaşlıq perspektivləri, təcrübə mübadiləsi və gələcək birgə təşəbbüslər ətrafında fikir mübadiləsi aparıb. Eyni zamanda mövcud əlaqələrin genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

### "Microsoft" şirkəti ilə səmərəli əməkdaşlıq

Mayın 18-də elm və təhsil naziri Emin Əmrullayev ilə "Microsoft" şirkətinin Qlobal Təhsil üzrə direktoru Dina Qobaşi arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı təhsil sahəsində rəqəmsal transformasiya, süni intellekt həllərinin tədris prosesinə inteqrasiyası, müəllimlərin rəqəmsal bacarıqlarının inkişafı və innovativ texnologiyaların tətbiqi istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub.

Tərəflər həmçinin "Microsoft" şirkətinin Azərbaycanda həyata keçirdiyi təşəbbüslərə də toxunublar. Şirkət tərəfindən "Rəqəmsal məktəb"də tətbiq edilən imkanların genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

### "Google" nümayəndəsi ilə təhsil texnologiyaları müzakirə edilib

Mayın 18-də elm və təhsil naziri Emin Əmrullayev ilə "Google" şirkətinin "Google for Education" üzrə regional direktoru Kolin Marson arasında görüş baş tutub.

Görüş zamanı məktəblərdə rəqəmsal ekosistemin inkişafı, təhsil müəssisələrində bulud texnologiyalarının tətbiqi, müəllim və şagirdlər üçün innovativ onlayn alətlərdən istifadənin genişləndirilməsi, eləcə də süni intellekt əsaslı həllərin tədris prosesinə inteqrasiyası məsələləri ətrafında müzakirələr aparılıb.

Həmçinin "Google" şirkətinin Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi layihələr diqqətə çatdırılıb. Bildirilib ki, "Rəqəmsal məktəb"də tətbiq olunan "Google for Education" alətləri bir sıra təhsil müəssisələrində tədris imkanlarının genişləndirilməsinə töhfə verib.

### Elm və təhsil naziri serbiyalı həmkarı ilə görüşüb

Mayın 18-də elm və təhsil naziri Emin Əmrullayev Serbiya Respublikasının təhsil naziri Dejan Vuk Stankoviç ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

### UNESCO ilə əməkdaşlıq genişləndirilir

Elm və təhsil naziri Emin Əmrullayev UNESCO-nun Baş direktorunun yeni təyin olunmuş təhsil üzrə müavini Qun Şen ilə görüş keçirib.

Görüş zamanı tərəflər təhsil sahəsində mövcud əməkdaşlıq, qlobal təşəbbüslərdə birgə iştirak istiqamətində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Görüşdə təhsildə innovativ yanaşmalar və dayanıqlı inkişaf məqsədləri istiqamətində birgə fəaliyyətin əhəmiyyəti qeyd edilib, gələcəkdə birgə layihələrin həyata keçirilməsi, təhsil sahəsində beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi və əməkdaşlığın daha da dərinləşdirilməsi ilə bağlı razılıq əldə olunub.

### Beynəlxalq Bakalavriat (IB) Təşkilatının baş direktoru ilə müzakirə aparılıb

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Bakalavriat (IB) Təşkilatının baş direktoru Olli-Pekka Heinonen ilə ikitərəfli görüş keçirib.

Görüş zamanı ümumi təhsildə məzmun və qiymətləndirmə islahatları ətrafında fikir mübadiləsi aparılıb, innovativ təhsil yanaşmaları və gələcək əməkdaşlıq perspektivlərinə toxunulub.

Görüş iştirakçıları kompetensiyaəsaslı kurikulum yanaşmaları və şagirdyönümlü tədris modellərini də müzakirə ediblər. Həmçinin, müasir qiymətləndirmə yanaşmaları və şagird nailiyyətlərinin ölçülməsi sahəsində beynəlxalq təcrübə nəzərdən keçirilib.

### Emin Əmrullayev OECD-nin təhsil və bacarıqlar üzrə direktoru ilə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayev İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxerlə görüş keçirib.

Görüş zamanı Azərbaycan ilə OECD arasında təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək istiqamətləri müzakirə olunub. Tərəflər xüsusilə şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsildə keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi və müasir bacarıqların inkişafı sahəsində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə beynəlxalq qiymətləndirmə mexanizmlərinin təhsil siyasətinin formalaşdırılmasında rolu qeyd olunub, məlumat əsaslı qərarvermə və təhsildə innovativ yanaşmaların tətbiqi istiqamətində birgə fəaliyyət perspektivləri nəzərdən keçirilib.

### Universitetlərimizin THE beynəlxalq reytinqindəki göstəriciləri

Elm və təhsil naziri Emin Əmrullayev "Times Higher Education" (THE) beynəlxalq reytinq agentliyinin qlobal məsələlər üzrə baş icraçı direktoru Fil Beyti ilə görüşüb.

Görüş zamanı Azərbaycan ali təhsil müəssisələrinin THE beynəlxalq reytinqlərində mövcud təmsilçilik göstəriciləri, son illərdə əldə olunan irəliləyişlər və universitetlərin qlobal rəqabət qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub.

Tərəflər Azərbaycan universitetlərinin beynəlxalq akademik nüfuzunun gücləndirilməsi və qlobal reytinqlərdə daha yüksək nəticələr əldə etməsi baxımından əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

### Azərbaycan və Özbəkistan arasında elm və ali təhsil əməkdaşlığının genişləndirilməsinə dair razılıq

Elm və təhsil naziri Emin Əmrullayev Dünya Təhsil Forumu çərçivəsində Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Sardor Racabov ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Özbəkistan arasında ali təhsil, elm və innovasiya sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Universitetlərarası əlaqələrin genişləndirilməsi, birgə elmi tədqiqat layihələrinin təşviq edilməsi, akademik mübadilə proqramları və innovasiya ekosisteminin inkişafı istiqamətində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər elm və ali təhsil sahəsində müasir yanaşmaların tətbiqi, eləcə də qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair razılığa gəliblər.

### Azərbaycan və Suriya arasında təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Elm və təhsil naziri Emin Əmrullayev Suriya Ərəb Respublikasının təhsil naziri Mohammad Turko və ali təhsil və elmi tədqiqat naziri Marvan Halabi ilə görüşüb.

Görüş zamanı Azərbaycan ilə Suriya arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər ali təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi, akademik əməkdaşlıq, tələbə və müəllim mübadiləsi ətrafında danışıblar.

Görüş çərçivəsində həmçinin cari ilin fevral ayında Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Suriya Ərəb Respublikasının təhsil naziri Dr. Mohammed Turko və ICESCO-nun baş direktoru Dr. Salim bin Məhəmməd əl-Malik tərəfindən imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş"dən irəli gələn məsələlərin icrası istiqamətində müzakirələr aparılıb.

### Azərbaycan nümayəndə heyəti QS rəhbərliyi ilə görüşüb

Emin Əmrullayev Londona səfəri çərçivəsində Quacquarelli Symonds (QS) reytinq agentliyinin təsisçisi və prezidenti Nunzio Kvakvarelli ilə görüş keçirib.

Görüş zamanı QS reytinqlərində Azərbaycan universitetlərinin mövcud göstəriciləri və gələcək inkişaf perspektivləri müzakirə olunub. Bununla yanaşı, ali təhsil sahəsində qlobal rəqabətliliyin gücləndirilməsi məqsədilə növbəti dövrdə müxtəlif istiqamətlər üzrə həyata keçirilməsi planlaşdırılan layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər arasında, həmçinin gələn ay Budapeşt şəhərində keçiriləcək Avropa Ali Təhsil Sammiti çərçivəsində Azərbaycan nümayəndə heyətinin iştirakı və universitetlərimizin ölkə pavilyonunda təmsil olunması məsələləri də müzakirə edilib.

# Böyük Britaniya və Şimali İrlandiya ilə ali təhsil əlaqələri genişləndirilir

## Vorvik Universiteti ilə gələcək əməkdaşlıq imkanları müzakirə edilib









Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Vorvik Universitetində olub Universitet rəhbərliyi ilə keçirilən görüşdə fənlərarası təhsil modeli, qlobal tədqiqat əməkdaşlıqları və beynəlxalq tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb, ali təhsil və transmilli təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti universitetin Elm, Mühəndislik və Tibb fakültələrinin, eləcə də Qlobal Dayanıqlı İnkişaf İnstitutunun nümayəndələri ilə görüşüb. Görüşlərdə yaşıl enerji keçidi kimi qlobal çağırışlara cavab verən təhsil və tədqiqat istiqamətləri təqdim edilib.

Nümayəndə heyəti universitetin Beynəlxalq İstehsalat Mərkəzi və tədqiqat laboratoriyaları ilə də tanış olub.

Səfər çərçivəsində Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə Vorvik Universitetinin birgə həyata keçirdiyi “Bərpa olunan enerji” ixtisası üzrə ikili diplom magistr proqramı barədə də məlumat verilib. Qeyd olunub ki, proqram strateji sahələr üzrə bacarıqların inkişafı və institusional potensialın gücləndirilməsi istiqamətində ortaq hədəfləri əks etdirir.

Səfər çərçivəsində Dövlət Proqramı üzrə Vorvik Universitetində təhsil alan tələbələrlə də görüş keçirilib, onların akademik fəaliyyəti və gələcək planları barədə fikir mübadiləsi aparılıb, sualları cavablandırılıb.

# Emin Əmrullayev Belfast Kraliça Universitetində olub



**Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Şimali İrlandiyanın Belfast Kraliça Universitetini (Queen's Belfast University) ziyarət edib.**

Səfər çərçivəsində universitet rəhbərliyi ilə geniştərkibli görüş keçirilib. Görüşdə ali təhsil sahəsində əməkdaşlıq perspektivləri, universitetlərarası əlaqələrin inkişafı, elmi-tədqiqat və akademik mübadilə imkanları müzakirə olunub.

Nümayəndə heyəti həmçinin universitetin kampusu, tədris auditoriyaları və tədqiqat mərkəzləri ilə tanış olub. Universitetdə tətbiq olunan müasir təhsil yanaşmaları və innovativ infrastruktur barədə məlumat verilib.

# Xarici ölkələrdə fəaliyyət göstərən məktəblərdə Azərbaycan dilinin tədrisinin təşkili üçün qrant müsabiqəsi keçirilir

**“Qrant haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı rəhbər tutulmaqla Elm və Təhsil Nazirliyi tərəfindən xarici ölkələrdə fəaliyyət göstərən məktəblərdə Azərbaycan dilinin tədrisinin təşkili üçün qrant müsabiqəsi elan edilir.**

Müsabiqədə ümumi təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi üzrə ən azı 3 il pedaqoji staja malik olan və yaşı 60-dan çox olmayan şəxslər iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunacaq layihə sənədlərinin qəbulu 3 iyun 2026-cı il, saat 17:00-dək grants@edu.gov.az elektron poçtu vasitəsi ilə həyata keçiriləcək.

# “Zəkaların mübarizəsi II” olimpiadasının final mərhələsi keçirilib











**Mayın 21-də Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydə ümumi təhsil müəssisələrinin IX—XI sinif şagirdlərinin iştirakı ilə “Zəkaların mübarizəsi II” olimpiadasının final mərhələsi keçirilib.**

Alena Əliyeva tədbirdə iştirak edib.

Əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin, həmçinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi olan olimpiadanın final mərhələsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilib. Final mərhələsi bilik yarışı və şahmat turniri olmaqla, komanda formatında təşkil edilib.

Rəsmi açılış mərasimində çıxış edən Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev diqqətə çatdırıb ki, final mərhələsinə ölkənin müxtəlif regionlarını təmsil edən şagirdlər qatılıb. Yarış sağlam rəqabət mühiti formalaşdırmaqla yanaşı, bilik və zəka üzərində qurulmuş mühüm platforma rolunu oynayır. Fuad Qarayev əlavə edib ki, layihə milli-mənəvi dəyərlərin təşviqinə və azərbaycançılıq ideyasının möhkəmləndirilməsinə də xidmət edir.

Daha sonra yarışlara start verilib.

Final mərhələsində bilik yarışı istiqaməti üzrə Bakının Xəzər, Nəsimi, Yasamal, Xətai və Nərimanov rayonları, həmçinin Gəncə, Naxçıvan, Mingəçevir və Şəki şəhərləri, Abşeron, İsmayıllı, Lerik, Saatlı, Bərdə, Qazax, Qusar, Zəngilan və Neftçala rayonlarının komandaları iştirak ediblər.

Şahmat turnirində isə Bakının Xətai, Xəzər, Sabunçu, Səbail və Yasamal rayonları ilə yanaşı, Gəncə, Naxçıvan, Sumqayıt və Şəki şəhərləri, Ağcabədi, Ağsu, Beyləqan, Cəbrayıl, Göyçay, Quba, Masallı, Neftçala və Tovuz rayonlarının komandaları mübarizə aparıblar.

Bilik yarışı üzrə final mərhələsində 18 komanda, ümumilikdə 108 şagird iştirak edib. Məktəblilər riyaziyyat, rəqəmsal texnologiyalar, təbiət və humanitar elmlər, mədəniyyət və incəsənət sahələri üzrə sualları cavablandırıblar. Şahmat turnirində isə hər biri 4 nəfərdən ibarət 18 komandanın tərkibində ümumilikdə 72 şagird iştirak edib.

Mükafatlandırma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qalibləri təbrik edərək bildirib ki, intellektual yarışlar gənclərin formalaşmasında mühüm rol oynayır. Onun sözlərinə görə, bu cür müsabiqələr şagirdlərin dünyagörüşünün, yaradıcı düşüncə qabiliyyətinin və komanda ilə işləmək bacarıqlarının inkişafına böyük töhfə verir.

Nazir müavini qeyd edib ki, 2030-cu ilədək inkişaf strategiyasında əsas prioritetlərdən biri insan kapitalının və innovativ cəmiyyətin formalaşdırılmasıdır. Bu isə yaradıcı və təşəbbüskar gənclərin yetişdirilməsini tələb edir. Firudin Qurbanov vurğulayıb ki, belə yarışlar gənclərin potensialının üzə çıxarılması və gələcək uğurlarının formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Nazir müavini qaliblərin yüksək bilik və bacarıq nümayiş etdirdiyini vurğulayaraq bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Alena Əliyeva bildirib: “Çox şadam ki, artıq iki ildir bu olimpiada həyata keçirilir. Dəstək üçün Heydər Əliyev Fonduna və Elm və Təhsil Nazirliyinə təşəkkür edirəm. Təhsil uğura gedən yoldur. Əziz şagirdlər, bu, sizin uğurunuzdur. Olimpiadanın bütün iştirakçılarını təbrik edirəm. İnanıram ki, gələcəkdə bu yolu birlikdə davam edəcəyik”.

Daha sonra olimpiadanın nəticələrinə əsasən qalib komandalar müəyyənləşdirilib, hər iki kateqoriya üzrə qızıl, gümüş və bürünc medallar sahiblərinə təqdim olunub.

Qeyd edək ki, olimpiadanın keçirilməsində əsas məqsəd müxtəlif sahələr üzrə bilik və bacarıqları ilə seçilən istedadlı gəncləri aşkara çıxarmaq, şagirdlərdə əməkdaşlıq, səmərəli ünsiyyət, liderlik, müzakirə mədəniyyəti, qərarvermə, komanda ilə işləmək, analitik və məntiqi düşünmə, planlaşdırma və strategiya qurma bacarıqlarını inkişaf etdirmək, həmçinin sağlam rəqabət mühiti yaratmaq və regionlararası ünsiyyəti genişləndirməkdir.

**AZƏRTAC**

# Baş prokuror Qarabağ Universitetinin tələbə və professor - müəllim heyəti üçün mühazirə keçib

**Mayın 20-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin tələbə və professor-müəllim heyəti üçün “Rəqəmsal cinayət təqibi: maddi daşıyıcılardan bulud texnologiyalarına” mövzusunda mühazirə keçirilib.**



Tədbiri açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov qonaqları salamlayıb və Qarabağ Universitetində “Hüquqşünaslıq” ixtisası üzrə kadr hazırlığına göstərilən davamlı dəstəyə görə Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinə təşəkkürünü bildirib.

Mühazirədə müasir müxtəlif hüquq sistemlərində, xüsusən də ölkəmizdə bu institutun tətbiqi xüsusiyyətləri və xarici ölkələrin təcrübəsi barədə müqayisəli təhlillər aparılıb.

Mühazirədə həmçinin sübutetmə yükünün mahiyyəti, prosessual subyektlərin bu sahədə hüquq və vəzifələri, təqsirsizlik prezumpsiyası ilə sübutetmə yükü aparılması ilə bağlı edilmiş yeni əlavə və dəyişikliklər barədə də ətraflı danışılıb.

Qeyd olunub ki, müasir texnoloji çağırışlar fonunda cinayət mühakimə icraatının rəqəmsallaşdırılması hüquq-mühafizə fəaliyyətinin operativliyinin və səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.



dövrdə rəqəmsallaşmanın hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə təsiri, cinayət-prosessual hüquqda sübutetmənin klassik yanaşmalardan rəqəmsal müstəviyə keçidi, eləcə də informasiya texnologiyalarının inkişafı fonunda sübut anlayışının transformasiyası barədə ətraflı məlumat verilib.

Həmçinin hüquqi dövlət prinsipləri çərçivəsində sübutetmənin mahiyyəti, cinayət-prosessual hüquqda sübutların rolu və cəmiyyətin texnoloji inkişafı ilə əlaqədar yaranan yeni hüquqi çağırışlar diqqətə çatdırılıb.

Mühazirə zamanı sübutların prosessual forması, kriminalistik xüsusiyyətləri, əməlin tövsifinə təsiri, onların toplanması, yoxlanılması və qiymətləndirilməsi mexanizmləri nəzəri və praktiki aspektlərdən izah olunub.

Bununla yanaşı, sübutların mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi məsələlərinə toxunularaq, sında qarşılıqlı əlaqə, eləcə də beynəlxalq konvensiyalar və hüquq doktrinalarında formalaşmış yanaşmalar barədə ətraflı məlumat verilib.

Rəqəmsal sübutların əldə olunması, saxlanılması və istifadəsi zamanı prosessual təminatların qorunmasının əhəmiyyəti vurğulanaraq, rəqəmsal transformasiya şəraitində fundamental hüquq və azadlıqların müdafiəsi ilə effektiv cinayət təqibi arasında balansın təmin edilməsinin vacibliyi qeyd edilib.

Qeyd olunanlarla yanaşı rəqəmsal sübutların texniki xüsusiyyətləri, elektron məlumat daşıyıcıları, bulud texnologiyaları və kiberməkanda formalaşan məlumatların hüquqi qiymətləndirilməsi məsələləri diqqətə çatdırılıb.

Mühazirə zamanı Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə elektron sübutlar, elektron sənədlər və cinayət təqibinin elektron qaydada

Bununla yanaşı, elektron sübutların prosessual statusu, onların əldə edilməsi və dövriyyəsi zamanı hüquqi təminatlar, habelə elektron cinayət təqibi mexanizmlərinin tətbiqi zamanı şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məsələlərinə xüsusi diqqət yetirilib.

Beynəlxalq hüquqi əməkdaşlıq müstəvisində Budapeşt Konvensiyası və Hanoy Konvensiyasının əhəmiyyətinə toxunulub, kibercinayətkarlıqla mübarizə və rəqəmsal sübutların əldə olunması sahəsində beynəlxalq hüquqi mexanizmlər barədə məlumat verilib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Baş Prokurorluğun rəhbər şəxsləri mütəmadi olaraq Qarabağ Universitetinin tələbələri üçün konkret mövzularda mühazirələr keçirlər.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

**Mayın 22-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Şuranın növbəti iclası keçirilib.**

İclasda Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Ləman Quliyeva və Tural Kərimovun, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun məsləhətçisi vəzifəsinə namizəd Fidan İsmayılzadənin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsilin təşkili sektorunun böyük məsləhətçisi və Təhsilin keyfiyyətinə nəzarət sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Banu Kazımovanın, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təhsilin keyfiyyətinə nəzarət sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Ağaməd Şənmədovun, Peşə Təhsili üzrə Dövlət Agentliyinin Tərəfdaşlarla iş və kommunikasiya şöbəsinin Tərəfdaşlarla iş sektorunun baş məsləhətçisi vəzifəsinə namizəd Günel Hacıyevanın şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 1 şikayətin təmin edilməsi, 2 şikayətin qismən təmin edilməsi, 3 şikayətin təmin edilməməsi, 1 şikayət üzrə icraata xitam verilməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# Kiyev Milli İnşaat və Memarlıq Universitetinin rektoru Elm və Təhsil Nazirliyində olub

**Bakıda keçirilən 13-cü Ümumdünya Şəhərsalma Forumunda (WUF13) iştirak etmək üçün ölkəmizdə səfərdə olan Ukraynanın Kiyev Milli İnşaat və Memarlıq Universitetinin nümayəndə heyəti ilə Elm və Təhsil Nazirliyində görüş keçirilib.**



Görüş zamanı universitetin rektoru Oleksiy Dniprov bildirib ki, ali təhsil müəssisəsinin Akademik Şurasının qərarı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Kiyev Milli İnşaat və Memarlıq Universitetinin Fəxri doktoru adı verilib.

Rektor qeyd edib ki, dövlət başçısı Azərbaycanda müasir təhsilin, elmin və şəhərsalma sahəsinin inkişafına verdiyi töhfələrə, eyni zamanda Ukrayna—Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi istiqamətində göstərdiyi səylərə görə bu yüksək adla təltif olunub. Rektor Oleksiy Dniprov tərəfindən Fəxri doktor diplomu elm və təhsil nazirinin müavininə təqdim edilib.

Görüş çərçivəsində həmçinin Azərbaycanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması, iki ölkə arasında təhsil sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Nazir müavini Həsən Həsənlinin Ağdaşdakı vətəndaş qəbulu ilə bağlı məlumat

Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin 22 may tarixində Ağdaş şəhərində keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib. Qəbulun tarixi barədə əlavə məlumat veriləcək. Qəbulda Ağdaş rayon sakinlərinin iştirakı nəzərdə tutulub. Qeyd edək ki, qəbulda yalnız müvafiq qaydada müraciət etmiş şəxslər iştirak edəcəklər.

# Nazir müavini Azərbaycan - Tacikistan Hökumətlərarası Komissiyasının 8-ci iclasında iştirak edib

**Mayın 21-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasında iştirak edib.**



İclasda iki ölkə arasında ticarət-iqtisadi, sənaye, təhsil və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Yekunda komissiyanın həmsədrləri tərəfindən iclasın nəticələrinə dair protokol imzalanıb.

İclas çərçivəsində həmçinin “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Saziş”in mübadiləsi həyata keçirilib.

## Uğur hekayəsi



# Aşpaz olmaq istəyirdi, ailə təsərrüfatı onu baytarlığa gətirdi

**Əvvəl aşpaz olmağı arzulayırdı, amma baytar olmaq üçün real addım atdı. Vaqif Nağızadə bu gün Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində “Baytar texniki” kimi yetişir.**

## Vaqifin peşə yolu

### Niyə baytar texniki? Necə oldu bu ixtisası seçdi?

“Azərbaycan müəllimi”nə qərarlarından danışan Vaqif deyir ki, Qəbələdə doğulub-böyüyən uşaqlardandır. Ali təhsil almaq arzusu hələ orta məktəb illərindən sönüb. Pandemiya VI sinifdə oxuyan Vaqifin dərslərə marağını bir qədər azaldıb: “Dərslərimiz onlayn keçirilirdi. Bir dəfə alınır, növbəti dəfə alınmır, gah qoşula bilir, gah da qoşula bilmirdim”.

Sadəcə pandemiya deyil, yaşayış şəraiti ilə əlaqədar məktəb dəyişikliyi də ona təsir edib: “VII sinfə qədər Biləcəri qəsəbəsindəki 299 nömrəli tam orta məktəbdə oxudum, sonra o məktəbdən çıxıb 297 nömrəli tam orta məktəbə getdim. VIII sinifdə oxuyanda isə ailəmlə Bakıdan Qəbələyə köçdük və Kiçik Əmili kənd tam orta məktəbində ümumi orta təhsilimi tamamladım”.

### Oxumaq üçün hər hansı ixtisas yox, peşə seçdi

IX sinfi bitirdikdən sonra peşə təhsilinə üz tutub. Bəs bu ixtisası necə müəyyənləşdirib?

Vaqif deyir ki, əslində aşpaz olmaq istəyirmiş: “Hələ orta məktəbdə oxuyanda qərar vermişdim ki, böyüyəndə peşə təhsili alacağam. Əslində niyyətim aşpaz olmaq idi, mətbəxə həvəsim vardı”.

Amma ailəsinin məşğuliyyəti - atasının Bakıda kiçik quşçuluq təsərrüfatı qurması onun planlarına təsir edib: “Bir müddət ailəm ilə birlikdə Bakıda yaşadıqdan sonra yenidən Qəbələyə köçərək burada təsərrüfatımızı genişləndirdik. Fikirləşdim ki, Qəbələyə təsərrüfatla məşğul olmağa gəlmişik, baytarlığı seçsəm, mənim üçün ikitərəfli yaxşı olar - həm evdə, həm məktəbdə”.

Beləliklə, ailə təsərrüfatının inkişafı onu təhsil istiqamətini dəyişdirməyə məcbur edib: “Qərara gəldim və ailəmlə də məsləhətləşdim. Onların lap ürəyindən oldu. Peşə təhsili müəssisələrinə qəbul prosesi başlayanda qeydiyyatdan keçdim. Qəbul boyu atamla birlikdə hərəkət etdik. Atam da çox həvəsli idi. Seçimimdə öz təsərrüfatımızı nəzərə almağım, onun inkişafına töhfə vermək istəməyim onu qürurlandırmışdı”.



### “İxtisasımıza uyğun praktik bacarıqlar əldə edirik”

Artıq II kurs tələbəsi olan Vaqif ixtisasını çox sevir: “3 illik “Baytar texniki” ixtisası üzrə təhsil alıram. Bu sahədə yaxşı mütəxəssis olmaq istəyirəm”.

Bu baxımdan Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində təşkil olunan istehsalat təlimi dərsləri və praktik məşğələlər onun və tələbə yoldaşlarının inkişafında mühüm rol oynayır: “Mütəmadi olaraq Qəbələ rayonunda fəaliyyət göstərən fermalara təcrübə səfərləri edirik. Orada real iş mühiti ilə tanış olur və ixtisasımıza uyğun praktik bacarıqlar əldə edirik”.

### “Öyrəndiyim bilikləri yalnız dərslərdə deyil, eyni zamanda öz ailə təsərrüfatımızda tətbiq edirəm”

Tələbə aldığı təhsilin əhəmiyyətindən danışıb: “Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində həm nəzəri, həm də praktik biliklər qazanırıq. Öyrəndiyim bilikləri yalnız dərslərdə deyil, eyni zamanda öz ailə təsərrüfatımızda tətbiq edirəm. Odur ki, hazırda ən böyük təcrübə meydanım öz təsərrüfatımızdır. Bacarıqlarımı məhz öz təsərrüfatımızda təkmilləşdirirəm. Bu da mənim peşəm üzrə daha tez inkişaf və real nəticələr əldə etməyimə imkan yaradır”.

**Ruhiyyə DAŞSALAHLI**

# Universitetlərimizin şəhərsalma strategiyasına töhfəsi

## Azərbaycanın Qarabağı təməldən dirçəltməsi dünya üçün yeni nümunədir



Şahin BAYRAMOV,
Qarabağ Universitetinin rektoru

**Bakıda BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan Hökumətinin birgə təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ölkəmizin beynəlxalq nüfuzunun və qlobal çağırışların həllində artan rolunun növbəti mühüm təsdiqidir. COP29-dan sonra dünyanın ən böyük beynəlxalq platformalarından birinə ev sahibliyi Azərbaycanın artan qüdrətinin və ölkəmizə göstərilən beynəlxalq etimadın bariz nümunəsidir. Belə qlobal platformaların məhz Azərbaycanda keçirilməsi ölkəmizin təhlükəsiz, sabit, innovativ və əməkdaşlığa açıq tərəfdaş kimi qəbul olunduğunu bir daha nümayiş etdirir.**



Əsas mövzusu "Dünyanın məskunlaşdırılması: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" olan WUF13 müasir dövrün ən aktual çağırışlarını əhatə edir. Azərbaycan isə bu istiqamətdə yalnız konseptual deyil, praktik və real təcrübə ortaya qoyan ölkələrdən biridir.

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən sistemli və sürətli quruculuq prosesi isə dünya üçün də yeni inkişaf modeli formalaşdırır. İnsan əsaslı şəhərsalma, ağıllı texnologiyalarla idarə olunan yaşayış məkanları, "yaşıl enerji" yanaşması, dayanıqlı inkişaf prinsipləri, təhlükəsiz və sağlam insan məskənlərinin qurulması bu modelin əsas elementlərini təşkil edir.

Müasir nəqliyyat infrastrukturu, keyfiyyətli səhiyyə xidmətləri, müasir təhsil mühiti, hərtərəfli mədəni inkişaf ekosistemi, sürətlə genişlənən məşğulluq imkanları və əlverişli investisiya iqlimi bərpa olunan Qarabağın əsas inkişaf göstəriciləridir. Bu baxımdan, postmünaqişə dövründə həyatın bərpası və davamlı məskunlaşmanın təmin olunması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələr beynəlxalq miqyasda xüsusi maraq doğurur.

Qarabağ artıq yalnız yenidən qurulan region deyil, həm də gələcəyin dayanıqlı şəhərsalma və insan məskunlaşması modelinin formalaşdığı unikal məkandır. Milli, regional və beynəlxalq tədbirlərə ev sahibliyi edən yeni yaşayış məkanlarının yaranması, turizm potensialının inkişafı və müasir urbanizasiya yanaşmalarının tətbiqi sözügedən modelin mühüm komponentləridir. Qarabağ Universiteti də bu böyük missiyanın ayrılmaz tərkib hissəsidir.

Universitetimiz elm, təhsil və innovasiya ekosisteminin inkişafı vasitəsilə işğaldan azad olunmuş ərazilərin davamlı tərəqqisinə töhfə verməyi əsas prioritetlərindən hesab edir. Bu gün Qarabağ Universitetində 50-yə yaxın ixtisas üzrə müasir məzmunlu ali təhsilli kadr hazırlığı həyata keçirilir.

İnanırıq ki, burada hazırlanan gələcəyin müəllimləri, həkimləri, hüquqşünasları, iqtisadçıları, mühəndisləri, incəsənət və turizm mütəxəssisləri və digər peşə sahibləri Qarabağın dayanıqlı inkişafında, təhlükəsiz və cəlbedici yaşayış məkanına çevrilməsində mühüm rol oynayacaqlar. Təbii ki, universitetimizin fəaliyyət istiqamətləri yalnız kadr hazırlığı və tədris prosesi ilə məhdudlaşmır.

Qarabağ Universiteti dayanıqlı inkişaf üçün elmi əsasların yaradılmasına xidmət edən tədqiqatların aparılmasını, müvafiq innovativ həllərin hazırlanmasını, "yaşıl inkişaf", rəqəmsal transformasiya və süni intellekt fokuslu innovasiya mərkəzinə çevrilməyi hədəfləyir. Güclü dövlət dəstəyi, yüksək ixtisaslı akademik heyətin qlobal vizyonu, yenilikçi tələbə gənclərin enerjisi, çevik universitet-sənaye əməkdaşlığı və yerli icma ilə fəal ünsiyyət qeyd olunan hədəflərə çatmaq üçün mühüm baza formalaşdırır.

Prezident İlham Əliyevin birbaşa diqqət və qayğısı nəticəsində hazırda Qarabağ Universitetinin müasir kampusu sürətlə formalaşır. Akademik, inzibati və tədqiqat infrastrukturu Qarabağda həyata keçirilən şəhərsalma strategiyasının ilkin və uğurlu nəticələrindən biri kimi meydana çıxır və artıq Xankəndi şəhərinin ümumi memarlıq simasında özünəməxsus yer tutur. İnşaat mühəndisliyi ixtisası üzrə həyata keçirilən kadr hazırlığı isə yaxın perspektivdə müasir mühəndis kadrların quruculuq prosesinə əhəmiyyətli töhfə verməsinə zəmin yaradır.

Bununla yanaşı, universitetimizin incəsənət profilli ixtisaslarında təhsil alan tələbələr və onların müəllimləri son iki ildə Qarabağda mədəni ekosistemin inkişafına mühüm töhfələr verirlər. Müntəzəm keçirilən konsert proqramları və mədəni tədbirləri bölgəyə qayıdan sakinlər böyük rəğbətlə qarşılayırlar. Xüsusilə, Xarıbülbül beynəlxalq musiqi festivalı Qarabağda mədəni həyatın yenidən canlanmasının simvolik göstəricilərindəndir. Qarabağ Universiteti klinikası, Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması tibbi kadr hazırlığına, müasir tədqiqatların aparılmasına, həm də keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsinə imkan yaradır.

Sağlam həyat mühiti və yüksək insan rifahı dayanıqlı məskunlaşmanın əsas şərtlərindən biri kimi fəaliyyətimizin mərkəzində dayanır. Qısa müddət ərzində 2200-ə yaxın tələbənin və 400-dən artıq peşəkar mütəxəssisin Xankəndi şəhərinə gəlməsi Qarabağ Universitetinin regionda həyatın bərpası prosesində oynadığı rolu nümayiş etdirir. Bu baxımdan, Qarabağ Universiteti dövlət başçısının müəllifi olduğu Qarabağın dirçəlişi strategiyasının, işğaldan azad olunmuş torpaqlarda həyatın bərpası və davamlı məskunlaşmanın təmin olunması siyasətinin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilə bilər.

Qürurvericidir ki, Qarabağ Universiteti WUF13 çərçivəsində təşkil olunan "Urban Expo" sərgisində öz paviliyonu ilə iştirak edir. Bunu Qarabağ Universitetinin beynəlxalq arenada tanıtımı baxımından böyük imkan və əlverişli fürsət hesab edirik. Qeyd olunanlar WUF13-ü Azərbaycanın dayanıqlı şəhərsalma və insan əsaslı məskunlaşma, eləcə də postmünaqişə məkanlarının bərpası və inkişafı sahəsindəki unikal təcrübəsinin beynəlxalq ictimaiyyətlə paylaşılması üçün mühüm platforma kimi dəyərləndirməyimizə əsas verir. İnanırıq ki, Bakının ev sahibliyi etdiyi forum ölkəmizin qlobal şəhərsalma gündəliyində rolunu daha da gücləndirəcək.

# Universitetlərimiz WUF13-də:

## Beynəlxalq auditoriyaya hansı layihələr təqdim edildi?

**Bakıda keçirilən WUF13 — BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əsas platformalarından biri olan "Urban Expo" sərgisində dünyanın müxtəlif ölkələrindən gətirilmiş layihələr, innovativ şəhər həlləri və gələcəyin urban baxışları nümayiş olundu. Nəhəng pavilyonların, rəqəmsal təqdimatların və beynəlxalq stendlərin arasında Azərbaycan universitetlərinin iştirakı da xüsusi diqqət çəkirdi. Burada onlar həm təhsil müəssisəsi kimi, həm də şəhərlərin gələcəyi haqqında düşünən, layihə hazırlayan və ideya ortaya qoyan akademik mərkəzlər kimi çıxış edirdilər.**









### BMU

**Sərgidə ən çox maraq doğuran universitet pavilyonlarından biri Bakı Mühəndislik Universitetinə məxsus idi. Stenddə nümayiş olunan iriölçülü maketlər, qeyri-adi memarlıq formaları və tələbələrin əl işi olan konsept layihələr qonaqları pavilyonun qarşısında saxlayırdı. Xüsusilə arı şanından ilhamlanaraq hazırlanmış orqanik memarlıq layihəsi həm estetik görünüşü, həm də dayanıqlı yanaşması ilə seçilirdi.**

Universitetin "Memarlıq" ixtisası üzrə II kurs tələbəsi Firuzə Qasımova-Əlizadə deyir ki, layihənin əsas məqsədi təbiətlə uyğunlaşan şəhər məkanı yaratmaqdır: "Bu layihə orqanik memarlıq prinsipləri əsasında hazırlanıb. Burada karbon emissiyasının azaldılması, ekoloji materiallardan istifadə və şəhərsalma planlamasının təbiətlə uyğun qurulması əsas götürülüb".

Onun sözlərinə görə, layihənin Kəlbəcərdə həyata keçirilməsi üçün ərazinin relyefi və təbii xüsusiyyətləri xüsusi nəzərə alınıb. Modul sistem üzərində qurulan konsept müxtəlif coğrafi şəraitlərə rahat uyğunlaşa bilir: "Tam beton konstruksiyadan istifadə olunmadığı üçün layihənin fərqli relyeflərə adaptasiyası daha asandır".

BMU tələbələrinin təqdim etdiyi digər layihələr isə Şuşa şəhəri və Cıdır düzü ətrafı üçün nəzərdə tutulub. Stadion, teatr, sərgi və idman mərkəzlərini birləşdirən kompleks layihələrdə landşaftla uyğunluq əsas memarlıq xətti kimi götürülüb. Maketlərdə sıldırım qayaların qarşısında yerləşdirilmiş tikililər, atrium tipli tədbir məkanları və alpinistlər üçün nəzərdə tutulmuş dayanacaq sahələri diqqət çəkən detallardan idi.

Firuzə Qasımova-Əlizadə bildirir ki, layihələrin memarlıq həlli əsasən üçbucaqlı formalar üzərində qurulub və bu yanaşma xüsusi hesablama texnikaları əsasında hazırlanıb.

BMU-nun stendində nümayiş etdirilən maketlər printer texnologiyasından istifadə edilmədən I və II kurs tələbələri tərəfindən hazırlanıb.

### ADNSU

**"Urban Expo" sərgisində diqqət çəkən universitet pavilyonlarından biri də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə aid idi. Stenddə həm akademik proqramlar, həm də innovativ layihələr təqdim olunurdu.**

Universitetin İctimaiyyətlə əlaqələr və marketiq şöbəsinin müdiri Xülya Sabirli bildirib ki, forumda iştirakın əsas məqsədi ADNSU-nun beynəlxalq imkanlarını və müasir təhsil mühitini tanıtmaqdır.

Pavilyonda xüsusilə xarici vətəndaşların marağı hiss olunurdu. Valideynlər, magistratura təhsili ilə maraqlanan gənclər və xarici tələbə kimi müraciət etmək istəyən şəxslər universitet nümayəndələri tərəfindən proqramlar haqqında ətraflı məlumat alırdılar.

ADNSU-da həyata keçirilən beynəlxalq proqramlar da qonaqlarda xüsusi maraq doğurur. "UFAZ və Uorvik Universiteti ilə birgə həyata keçirilən bərpa olunan enerji proqramları böyük diqqət çəkir. Bu ildən etibarən UFAZ-da "Su ehtiyatlarının idarə edilməsi" ixtisası da fəaliyyətə başlayıb".

Stendin ən canlı hissələrindən biri isə universitetin Startap və TTO Mərkəzinin təqdim etdiyi layihələr idi. Burada tələbələrin hazırladığı texnoloji həllər sərgiyə gələn qonaqların diqqətini xüsusilə cəlb edirdi.

ADNSU-nun II kurs tələbəsi İsmayıl Hacıyev forumda "AID-1" adlı dördayaqlı robotu təqdim edirdi.

İsmayıl Hacıyev deyir ki, layihə neft və qaz sektorunda təhlükəli ərazilərdə insan əməyini azaltmaq məqsədi daşıyır: "Robot təhlükəli ərazilərdə rutin tapşırıqları avtonom şəkildə yerinə yetirmək üçün hazırlanıb. Süni intellekt, kompüter görməsi texnologiyası və 360 dərəcə maneə aşkarlayan sensorlarla təchiz olunub".

Onun sözlərinə görə, layihənin əsas üstünlüklərindən biri robotun hərəkəti əvvəlcədən sərt kodlarla deyil, süni intellekt vasitəsilə öyrənməsidir: "Biz əvvəlcə robotun 3D modelini hazırlayırıq, sonra onu xüsusi simulyasiya platformalarına ötürürük. Robot virtual mühitdə hərəkət etməyi özü öyrənir".

Forumda ADNSU tərəfindən təqdim olunan digər startap isə suyun ekoloji üsulla təmizlənməsinə həsr olunub. Layihədə ənənəvi xlor əvəzinə azot əsaslı təmizləmə sistemi təklif edilir. Günəş panelləri ilə çalışan sistem həm enerji baxımından səmərəli, həm də ekoloji cəhətdən daha təhlükəsiz həll kimi təqdim olunur.

### BDU

**"Urban Expo" sərgisində Bakı Dövlət Universitetinin pavilyonu daha çox elmi-tədqiqat istiqamətli təqdimatları ilə seçilirdi. Burada şəhərlərin gələcəyi ilə bağlı həm nəzəri yanaşmalar, həm də urbanizasiya, ekoloji dayanıqlılıq və rəqəmsal transformasiya sahəsində aparılan multidisiplinar araşdırmalar nümayiş etdirilirdi. Stendə yaxınlaşan qonaqlar monitorlarda təqdim olunan layihələrlə tanış olur, universitet nümayəndələri ilə müzakirələr aparırdılar.**

BDU-nun Xarici tələbələrlə iş şöbəsinin müdiri Nigar Seyidli bildirir ki, ekspozisiyada şəhər mühitinin dayanıqlı inkişafı, ekoloji tarazlığın qorunması, iqlim dəyişikliklərinə adaptasiya, innovativ texnologiyaların tətbiqi və inklüziv inkişaf modelləri istiqamətində həyata keçirilən elmi layihələri təqdim edirik.

BDU pavilyonunda universitetin müxtəlif fakültələri və elmi mərkəzləri tərəfindən həyata keçirilən beynəlxalq layihələr, tərəfdaşlıq proqramları və onların praktiki tətbiq imkanları da nümayiş etdirilirdi.

Nigar Seyidli deyir ki, universitetin Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı Proqramı çərçivəsində təhsil alan xarici tələbələri də WUF13 tədbirlərinə fəal şəkildə qoşulublar: "Tələbələr həm könüllü fəaliyyət göstərirlər, həm də müxtəlif təlimlərdə iştirak edirlər.

WUF13 çərçivəsində universitetlərin pavilyonlarında nümayiş etdirilən bu layihələr göstərir ki, Azərbaycan universitetləri artıq innovasiya, texnologiya və tətbiqi həllərlə də qlobal platformalarda görünməyə başlayırlar.

**Mərziyyə KAZIMZADƏ**

## “Müəllimin pedaqoji gündəliyi”

### Azərbaycan Gənc Müəllimlər Assosiasiyası ilə birgə layihə



# Sual verən şagird...

Uşaq vaxtı… təxminən dörd—beş yaşım olardı. Bir gün anamdan soruşdum:

- “Ana, niyə bu meyvəyə apelsin (portağal) deyirlər?”

Onda bu sual mənim üçün sadəcə maraqlı bir sözdü. Amma illər sonra öyrəndim ki, “apelsin” sözünün kökü “Apple in China” – “Çindəki alma” ifadəsindən gəlir. Sonra hollandlar bu ifadəni götürüb “apelsin” deyiblər.

Dahi Volter demişdir: “İnsanı cavablarına görə deyil, verdiyi suallara görə tanımaq olar”. Bu fikir insanın düşüncə tərzini, maraq dairəsini və daxili aləmini dərinliklə əks etdirir. Hər bir sual insanın nəyi görmək, nəyi anlamaq və nəyə dəyər verdiyini göstərir. Məhz buna görə də sual vermək sadəcə öyrənmək vasitəsi deyil, həm də düşünən, axtaran və inkişaf edən insanın göstəricisidir.

Müasir təhsil anlayışı artıq təkcə bilik ötürməkdən ibarət deyil. Bugünkü tədris prosesi şagirdi düşünən, araşdıran, tənqidi qərar verən və yaradan fərd kimi yetişdirməyə yönəlmişdir. Bu yanaşmanın əsas dayaqlarından biri sualvermə bacarığıdır. Sual vermək şagirdi passiv dinləyicidən aktiv düşünənə çevirir. Albert Eynşteynin məşhur fikri bunu çox gözəl ifadə edir: “Əgər bir problemi həll etmək üçün bir saatım olsaydı, onun 55 dəqiqəsini sualı düzgün formalaşdırmağa sərf edərdim.” Bu fikir təsdiqləyir ki, öyrənmənin başlanğıcı elə doğru sualdan keçir.

Sual verən şagird təlim prosesində sadəcə bilik alan deyil, biliyi yaradan və onun üzərində düşünən şəxsə çevrilir. Onun sualları öyrənməyə marağı dərinləşdirir və düşünmə bacarığını gücləndirir. Sualvermə bacarığı intellektual inkişafın göstəricisidir, çünki hər bir sual düşünmənin başlanğıcıdır. Düzgün formalaşdırılmış sual yeni biliklərə aparan körpüdür.

**Sual verən şagirdin əsas xüsusiyyətləri**

- **Fikirlərini əsaslandırmaq bacarığı -** Sadəcə cavab verməklə kifayətlənmir, fikrinin arxasında duran arqumentləri də izah edir.
- **Müşahidə və maraq -** Ətrafındakı hadisələri diqqətlə izləyir, səbəbləri və nəticələri araşdırır.
- **Tədqiqat yönümlü düşüncə -** Yeni məlumatı olduğu kimi qəbul etmir, onu yoxlayır, təcrübə və müşahidə ilə təsdiqləyir.
- **Müstəqillik və təşəbbüskarlıq -** Hazır cavab istəmir, öz sualını formalaşdırır və nəticəyə özü gəlir.

**Sualvermənin şagird şəxsiyyətinə təsiri**

Sualvermə şagirdin həm psixoloji, həm də idrak inkişafını dəstəkləyir. Bu bacarıq müstəqil öyrənmə və məsuliyyət hissini gücləndirir, fikrini sərbəst ifadə etmə və ünsiyyət bacarığını artırır, özünə inam yaradır, marağı və motivasiyanı canlı saxlayır.

**Sualverməni təşviq edən metodik üsullar**

- **“Sual Qutusu”** — şagirdlər anonim və ya açıq şəkildə maraqlı suallarını yazarlar.
- **“Sualdan Cavaba”** — şagirdlər bir-birinə sual verərək dərsdə dialoq yaradır.
- **“Ən Yaxşı Sual” müsabiqəsi** — cavabdan çox, sualın dəyəri qiymətləndirilir.
- **“Sualdan Tədqiqata”** — şagird öz sualı əsasında mini-layihə və araşdırma aparır.

Müəllim sadəcə bilik ötürən deyil, düşünməyə, sual verməyə və araşdırmağa yönəldən bələdçi olmalıdır. “Bu, çox maraqlı sualdır!” kimi ifadələr şagirdin motivasiyasını artırır. Müəllim dərsdə sual-cavab mədəniyyətini əsas tədris üsuluna çevirməlidir.

Tədrisin əsas məqsədi sual verə bilən, düşünən və öyrənən fərdlər yetişdirməkdir. Çünki sual verən insan yalnız öyrənmir, həm də yaradır, inkişaf etdirir və gələcəyi formalaşdırır. “Sual verməyi dayandıran insan, düşünməyi də dayandırar” — Albert Eynşteyn.



**Lamiyə VƏLİYEVA,**
**Bakı şəhər 210 nömrəli tam orta ümumtəhsil məktəbin biologiya və təbiət müəllimi**

---

Festivaldan reportaj

# Uşaqlar kitabların sehrinə düşdülər

## Kitab sevgisi kiçik addımlarla başlayır və böyük gələcəklərə yol açır

**Ötən həftə Bakıda uşaqların kitab sevgisini bayrama çevirdiyi ən böyük tədbirlərdən biri - V Uşaq Kitab Festivalı baş tutdu. Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Nəşriyyatlar Assosiasiyası İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən və 5 gün davam edən festival artıq regionun ən böyük uşaq kitab layihələrindən biri kimi növbəti dəfə diqqətləri öz üzərinə çəkməyi bacardı.**

Bakı İdman Sarayında keçirilən festivaldakı maraqlı anların şahidi olmaq, ziyarətçilərin təəssüratlarını öyrənmək üçün biz də fotoqrafımız Kənan Qafarovla bu geniş məkanı gəzdik.

Onu da xüsusi qeyd edək ki, Bakı İdman Sarayının qarşısında böyük izdiham var idi. Müəllimlər şagirdləri ilə, valideynlər isə övladlarının əlindən tutaraq festivalın keçirildiyi məkanına üz tuturlar. Burada hər bir stend yeni bir dünyaya açılan qapı, hər bir kitab isə uşaqların xəyal gücünü genişləndirən bir yol yoldaşı idi. Uşaqlar müəlliflərlə görüşür, nağıl qəhrəmanları ilə şəkil çəkdirir, yeni kitablar seçir və ən əsası, oxumağın sevincini yaşayırdılar.

**Uşaqların kitabları əllərində tutub vərəqləməsi tam fərqli bir təsir yaradır**

Uşaq Kitab Festivalına Bakı sakini Şəfa Xəlilova qızı Nilay Xəlilzadə ilə birlikdə gəlib. Nilay Bakıdakı 275 nömrəli tam orta ümumtəhsil məktəbinin 3-cü sinif şagirdidir. Aldığı kitabları bizə göstərir. Onları özü seçdiyi üçün çox sevindiyini deyir. Kitabların rəngarəngliyi və maraqlı mövzuları onun diqqətini çəkib. Nilayda kitaba marağı isə ona dərs deyən ibtidai sinif müəllimi Xatirə Tağıyeva yaradıb. Elə Xatirə müəllim və sinif yoldaşları ilə birlikdə bu festivala qatılıb.

Anası Şəfa Xəlilova bildirir ki, qızının kitablarla maraqlanması onu çox sevindirir. Onun sözlərinə görə, Nilayın belə bir festivalda öz istəyi ilə kitab seçməsi və oxumağa həvəs göstərməsi gələcək inkişafı üçün çox önəmlidir.

Bakıdakı 31 nömrəli tam orta ümumtəhsil məktəbinin ibtidai sinif müəllimi Rübabə Abbasova dərs dediyi şagirdləri ilə birlikdə Uşaq Kitab Festivalına qatılıb. Şagirdləri festivalda müxtəlif nəşrlərlə tanış olub, sevdikləri mövzulara uyğun kitablar seçərək həm alış-veriş edib, həm də oxu mədəniyyəti ilə bağlı yeni təcrübə qazanıblar.

Rübabə Abbasova bir müəllim kimi belə festivalların təhsil prosesini tamamlayan çox vacib bir vasitə olduğunu bildirir.

Onun sözlərinə görə, uşaqların kitabları əllərində tutub vərəqləməsi, müəlliflərlə və nəşrlərlə birbaşa tanış olması tam fərqli bir təsir yaradır. O qeyd edir ki, şagirdlərin sərbəst şəkildə kitab seçməsi onların fərdi maraqlarını üzə çıxarır və oxu vərdişlərinin formalaşmasına ciddi təsir göstərir. Bəzi uşaqlar macəra kitablarına, nağıllara, digərləri isə ensiklopedik və öyrədici nəşrlərə üstünlük verir ki, bu da müəllim olaraq onların maraq dairəsini daha yaxından tanımaq imkanı yaradır.

Məkanın bir hissəsində uşaqlar üçün maraqlı interaktiv oyun nümayiş olunurdu. Həmin guşəyə yaxınlaşırıq. Uşaqların sual-cavab formatında olan oyunlarda necə maraqla və həvəslə iştirak etmələrini görürük. Mikrafonumuzu görən bir uşaq yaxınlaşıb festival sevincini bizimlə paylaşır. Balaca müsahibimiz Bakıdakı 31 nömrəli tam orta ümumtəhsil məktəbin 3-cü sinif şagirdi NurFatimə Məmmədlidir.

Deyir ki, müəllimi və sinif yoldaşları ilə birlikdə festivalda iştirak etməkdən çox məmnundur. Buraya daxil olan kimi rəngarəng kitablar və müxtəlif stendlər onun diqqətini çəkib.

NurFatimə xüsusilə interaktiv oyun zonasında iştirak etdiyini və orada kitablarla bağlı maraqlı tapşırıqlar işlədiyini bildirir. Onun sözlərinə görə, bu cür oyunlar oxumağı daha da əyləncəli edir.

**“Şagirdlər üçün böyük motivasiya”**

Festivalda diqqətimizi cəlb edən maraqlı məqamlardan biri də paytaxtın orta ümumtəhsil müəssisələri ilə yanaşı, Bakıətrafı kəndlərdən gələn məktəblilərin fəal iştirakı idi. Mərdəkandan, Maştağadan, Bülbülədən, Zirədən, Kürdəxanıdan və digər kəndlərdən gələn şagirdlər, onların müəllim və valideynləri olduqca məmnun görünürdülər.

Hökməli qəsəbə tam orta məktəbin ibtidai sinif müəllimi Gülnur Qəniyeva festivalda dərs dediyi şagirdləri ilə birlikdə iştirak edir.

Gülnur müəllim festival haqqında fikirlərini bölüşərək deyir: “Uşaqlar burada böyük həvəslə iştirak edirlər. Kitablarla tanış olur, müəlliflərlə görüşür, yeni biliklər əldə edirlər. Bu da onların dünyagörüşünü genişləndirir və oxumağa maraqlarını artırır. Biz çalışırıq ki, belə gözəl layihələrdən geri qalmayaq. Şagirdlərimizi mütləq şəkildə bu cür festivallara gətiririk ki, onlar həm maariflənsin, həm də fərqli bir mühit görsünlər. Bu, onların sosial, eyni zamanda intellektual inkişafı üçün çox vacibdir”.











Ayşa Hüseynova oğlu Murad Hüseynovla burada iştirak edir. Murad Hökməli qəsəbə tam orta məktəbin şagirdidir. A.Hüseynova bir valideyn olaraq belə bir gözəl təşəbbüsə görə festivalın təşkilatçılarına öz minnətdarlığını bildirir: “Bu cür tədbirlər uşaqlarda kitab oxumağı bir “vəzifə” kimi yox, zövq və maraq kimi formalaşdırır. Şagirdlərin festivaldan sevinc hissi ilə ayrılması, aldıqları kitabları səbirsizliklə oxumaq istəmələri onun üçün ən böyük motivasiyadır”.

**“Festivalın regionun ən böyük beynəlxalq uşaq kitab sərgisinə çevrilməsini arzu edirik”**

Azərbaycan Nəşriyyatlar Assosiasiyası İctimai Birliyinin sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiqi uşaqların və müəllimlərin əhatəsində görürük. Şəmil müəllimin fikirlərini öyrənirik. Qeyd edir ki, beş ildir Azərbaycan Nəşriyyatları Assosiasiyasının təşkilatçılığı ilə Uşaq Kitab Festivalı keçirilir: “Bu illər ərzində əsas məqsədimiz Azərbaycan kitabını, Azərbaycan dilində uşaq ədəbiyyatını tanıtmaq, sevdirmək və qorumaq olub. Çünki uşaqlar üçün yazılan kitablar nə qədər zəngin olarsa, onların nitqi, dünyagörüşü, oxu mədəniyyəti və ümumilikdə ədəbiyyata marağı da bir o qədər inkişaf edər.Festivalda uşaqlara təqdim olunan kitablar həm yerli müəlliflərin əsərləri, həm də Azərbaycan dilinə tərcümə olunmuş uşaq ədəbiyyatı nümunələridir.

Sevindirici haldır ki, son beş ildə uşaq kitabı sahəsində ciddi canlanma yaranıb. Nəşriyyatların nəzdində yeni uşaq kitab markaları formalaşıb, təxminən 10-a yaxın yeni uşaq brendi meydana gəlib. Onlarla gənc müəllif bu sahəyə maraq göstərməyə başlayıb”.

Şəmil müəllimdən onu da öyrənirik ki, festivalın keçirildiyi müddət ərzində uşaqların həm əylənməsi, həm də dünyagörüşünün inkişafı üçün müxtəlif tematik- milli geyim, peşələr, dünya ölkələri,nağıl qəhrəmanları günləri, və digər maraqlı proqramlar həyata keçirilir. Məsələn, milli geyimlər günündə iştirakçıların milli geyimlərlə gəlməsi tövsiyə olunur. Nağıl qəhrəmanları günündə isə nəşriyyatlar öz kitablarındakı qəhrəmanları geyim və obraz şəklində təqdim edirlər. Dünya ölkələri günü üçün isə hər nəşriyyata Azərbaycanla dost, ədəbi-mədəni əlaqələri olan ölkələrdən biri təqdim olunur və həmin ölkənin mədəniyyəti uşaqlara tanıdılır. Festival çərçivəsində keçirilən tədbirlərə nağıl saatları, musiqili proqramlar, teatr tamaşaları, səhnəciklər, əyləncə saatları, uşaqlar üçün intellektual yarışlar, istedadların üzə çıxarılmasına yönəlmiş müxtəlif fəaliyyətlər daxildir. Bütün bunlar festivalın sadəcə kitab sərgisi deyil, əsl uşaq bayramı xarakteri daşımasına imkan yaradır.

Şəmil müəllimin sözlərinə görə, keçən il festivalda təxminən 50 minə yaxın uşaq iştirak edib. Bu il isə hədəf sayı 100 min uşağa çatırmaqdır.

Həmsöhbətimiz bu festivala xüsusi hazırlaşdıqlarını məktəblilərə 100 minə yaxın kitab daxılı hədiyyə olunduğunu söyləyir: “Bizim arzumuz budur ki, yaxın gələcəkdə festival regionun ən böyük beynəlxalq uşaq kitab sərgisinə çevrilsin, çünki Qafqazda və ümumilikdə region ölkələrində məhz bu formatda ixtisaslaşmış uşaq kitab festivalı demək olar ki, yoxdur”.

**“Bəhram əminin kitabları”**

“Bəhram əminin kitabları” stendinin qarşısında Əməkdar artist, uşaq kitablarının müəllifi, naşir Bəhram Bağırzadənin uşaqlarla səmimi söhbətinə şahid oluruq. Bəhram müəllim böyük məmnuniyyətlə bizimlə festival haqqında təəssüratlarını bölüşür. O, festivalın uşaqların inkişafı və cəmiyyətin gələcəyi baxımından mühüm əhəmiyyət daşıdığını bildirir. Qeyd edir ki, ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif tədbirlərin keçirilməsi Azərbaycanın inkişafının və gələcəyə verdiyi önəmin göstəricisidir:“Belə nüfuzlu tədbirlər onu göstərir ki, dövlətimiz, xalqımız inkişaf edir”.

Bəhram Bağırzadə xüsusilə uşaqlarda kitaba sevgi hissinin formalaşdırılmasında valideynlərin roluna diqqət çəkərək bunun ən doğru yolunun ailədən başladığını söyləyir: “Əgər ata-ana kitab oxuyursa, uşaq da onlardan nümunə götürəcək, kitab oxumağa marağı olacaq.Təhsilli valideyn övladına ən yaxşı nümunədir. Kitab oxumaq, mütaliə ilə məşğul olmaq uşaqların dünyagörüşünün, düşüncə tərzinin və mənəvi inkişafının formalaşmasında mühüm rol oynayır. Kitab uşağın təxəyyülünü inkişaf etdirir, nitqini zənginləşdirir, həyata baxışını dəyişir”.

Əməkdar artistin sözlərinə görə, müasir dövrdə texnologiyanın inkişafı uşaqları kitablardan uzaqlaşdırsa da, kitabın düzgün təqdimatı və keyfiyyətli məzmun onların diqqətini yenidən mütaliəyə yönəldə bilər: “Bu gün uşaqlar daha çox telefon, planşet və kompüterlə maraqlanırlar. Ona görə kitab həm məzmun, həm də dizayn baxımından cəlbedici olmalıdır. İllüstrasiya, çap keyfiyyəti və mətn bir-birini tamamlamalıdır. Müasir uşağın diqqətini çəkmək üçün kitab da müasir formada təqdim edilməlidir”.

**“Uşaq ədəbiyyatının və nəşriyyatların artması sevindirici haldır”**

Festivalda yazıçı, şair Zahid Xəlillə rastlaşırıq. Uşaq ədəbiyyatımızın təbliğatçısı kitabın uşağın dünyagörüşünü formalaşdıran əsas vasitə olduğunu xüsusi vurğulayır. Zahid müəllimin fikrincə, belə tədbirlər uşaqları kitaba daha yaxın edir, onlarda oxuma marağını gücləndirir və sözə, ədəbiyyata sevgi yaradır “Uşaq Kitab Festivalı yalnız kitabların təqdim olunduğu bir məkan deyil, həm də uşaqların canlı ünsiyyət qurduğu, yazıçılarla tanış olduğu, suallar verdiyi və yeni ideyalar qazandığı bir mühitdir. Bu cür görüşlərdən sonra uşaqların kitaba münasibəti nəzərəçarpacaq dərəcədə dəyişir, onların marağı və sualları daha da artır, düşüncə dairəsi genişlənir”.

Zahid Xəlil həmçinin bildirir ki, uşaq ədəbiyyatının və nəşriyyatlarının artması sevindirici haldır. Bu, ölkədə kitab mədəniyyətinin inkişaf etdiyini göstərir və uşaqlar üçün daha çox seçim imkanı yaradır: “Nəticə olaraq, kitab festivalları uşaqlarda kitaba sevgi formalaşdırır, onların düşüncə və dünyagörüşünü genişləndirir, oxuma mədəniyyətini inkişaf etdirir. Bu cür tədbirlər gələcək nəsillərin daha bilikli, yaradıcı və düşüncəli yetişməsinə mühüm töhfə verir”.

**“Məqsəd kitabı əyləncəli bir dünyaya çevirməkdir”**

Uşaq Kitab Festivalının layihə rəhbəri, “Ağıllı Bala” nəşriyyatının direktoru, uşaq yazıçısı Fatimə Alxaz da tədbirdən ziyarətçilər qədər məmnundur. “Artıq beş ildir ki, təşkil olunan festivalın əsas məqsədi uşaqlarda kitaba sevgi yaratmaq, onları mütaliəyə cəlb etmək və kitabı əyləncəli bir dünyaya çevirməkdir. Biz düşündük ki, uşaqlar niyə telefona, kompütərə bu qədər bağlanır? Çünki orada əyləncə var. Biz də elə bir mühit yaratdıq ki, uşaqlar kitabın içində də eyni əyləncəni, hətta daha zəngin təcrübəni tapsınlar”.

**Ən gözəl hədiyyə kitabdır**

Şairə Elnarə Cahanın stendinə yaxınlaşırıq. O, kitablarını uşaqlara təqdim edir. Kiçik oxucular böyük maraqla kitablarla tanış olur, müəlliflə söhbət edir, imza almaq üçün növbəyə dayanırlar.

Şairənin festivalla bağlı fikirlərini öyrənirik: “Uşaq Kitab Festivalı çox gözəl bir təşəbbüsdür. Burada uşaqlarla birbaşa ünsiyyət qurmaq, onların maraqlarını görmək və kitab sevgisini daha da artırmaq imkanı yaranır”.

O, yaradıcılığında əsasən vətənpərvərlik, sağlam həyat tərzi, ailə dəyərləri, məktəbə sevgi və müəllimə hörmət kimi mövzulara üstünlük verdiyini vurğulayır:“Əsərlərimdə bu dəyərləri uşaqlara çatdırmağa çalışıram. İstəyirəm ki, onlar həm oxusunlar, həm öyrənsinlər, həm də milli dəyərlərimizi sevsinlər.”

Reportaj hazırladığımı bir neçə dəqiqəlik unudub mən də kitab almağa qərar verirəm. Ailəmdəki uşaqları sevindirmək üçün kitabın ən gözəl hədiyyə olduğunu düşünərək bir neçə kitab alıram.

Beləcə, festivaldakı bir günümüz sona çatır. Məkanın hər küncündə uşaq səsi, kitab səhifələrinin xışıltısı və bir-birinə qarışan rəngarəng obrazların təsiri altında oranı tərk edirik. Festivalın səsli-küylü, rəngli və eyni zamanda maarifləndirici atmosferi bir daha təsdiqləyir ki, kitab sevgisi kiçik addımlarla başlayır və böyük gələcəklərə yol açır.

**Samirə KƏRİMOVA**
**Foto: Kənan QAFAROV**

# UNİVERSİTETLƏR: YENİ TRENDLƏR

## Universitetlərdə rəqəmsal texnologiyaların tətbiqi: insan mərkəzli yanaşma niyə vacibdir?

**Müasir universitetlər artıq yalnız auditoriya və kitabxana məkanı deyil. Rəqəmsallaşma ali təhsilin idarə olunması, tədris metodları, elmi tədqiqat fəaliyyəti və tələbə xidmətləri üçün yeni mərhələ formalaşdırır. Lakin beynəlxalq təcrübə göstərir ki, rəqəmsal texnologiyaların tətbiqi yalnız texniki məsələ deyil — bu, ilk növbədə insan yönümlü transformasiya prosesidir.**



### Universitetlərdə rəqəmsallaşmanın əsas məqsədi nədir?

Universitetlərdə rəqəmsallaşmanın əsas məqsədi texnologiyanı nümayiş etdirmək deyil, təhsil, elm və idarəetmənin keyfiyyətini yüksəltməkdir. Başqa sözlə, rəqəmsallaşma universitetin bütün fəaliyyətini daha çevik, şəffaf, effektiv və insan yönümlü etmək məqsədi daşıyır.

**Əsas məqsədləri aşağıdakı kimi ümumiləşdirmək olar:**

1. ***Tədrisin keyfiyyətini artırmaq*** *– Rəqəmsal platformalar, interaktiv dərslər, onlayn resurslar və süni intellekt əsaslı sistemlər tələbələrin daha effektiv öyrənməsinə kömək edir.*
2. ***Tələbə mərkəzli təhsil modeli yaratmaq*** *– Hər tələbənin fərdi inkişaf trayektoriyasını izləmək, fərdiləşdirilmiş təhsil imkanları təqdim etmək və çevik öyrənmə mühiti formalaşdırmaq.*
3. ***Müəllimlərin iş yükünü azaltmaq*** *– Elektron jurnal, avtomatik qiymətləndirmə, rəqəmsal hesabat sistemləri rutin inzibati işləri azaldaraq müəllimin elmi və yaradıcı fəaliyyətinə daha çox vaxt ayırmasına imkan yaradır.*
4. ***Elmi fəaliyyətin idarə olunmasını gücləndirmək*** *– Elmi bazalar, rəqəmsal arxivlər, qrant və nəşr idarəetmə sistemləri tədqiqatların effektivliyini artırır və beynəlxalq əməkdaşlığı genişləndirir.*
5. ***Universitet idarəetməsini modernləşdirmək*** *– Data əsaslı qərarvermə, elektron sənəd dövriyyəsi və analitik platformalar universitetin idarə edilməsini daha operativ və şəffaf edir.*
6. ***Əmək bazarına uyğun kadr hazırlamaq*** *– Rəqəmsal bacarıqlara malik mütəxəssislərin hazırlanması müasir iqtisadiyyatın əsas tələblərindən biridir.*
7. ***Universitetin beynəlxalq rəqabət qabiliyyətini artırmaq*** *– Rəqəmsal transformasiya universitetlərin beynəlxalq reytinqlərdə, elmi əməkdaşlıqda və global təhsil bazarında mövqeyini gücləndirir.*

Ən vacib məqam isə budur: rəqəmsallaşmanın məqsədi "texnologiya mərkəzli universitet" yaratmaq deyil, "insan mərkəzli ağıllı universitet" modeli qurmaqdır. Texnologiya tələbə, müəllim və tədqiqatçının inkişafına xidmət etdikdə rəqəmsallaşma uğurlu hesab olunur.

### Müasir tələbənin gözləntiləri dəyişib

Beynəlxalq sorğular göstərir ki, tələbələrin böyük hissəsi artıq işləyir və ya ailə məsuliyyəti daşıyır. Buna görə çevik və hibrid təhsil modellərinə ehtiyac artır.

### Bugünkü tələbə üçün əsas məsələ:

- *dərsin onlayn və ya oflayn olması deyil;*
- *öyrənmənin keyfiyyəti və interaktivliyidir.*

### Tələbələr:

- *fərdiləşdirilmiş təhsil,*
- *rahat rəqəmsal giriş,*
- *karyera yönümlü proqramlar,*
- *akademik mentorluq gözləyirlər.*

Ən ciddi problemlərdən biri isə universitet proqramlarının əmək bazarının tələblərinə tam uyğunlaşmamasıdır. Bir çox məzun hesab edir ki, universitet onları real peşə fəaliyyətinə kifayət qədər hazırlamır.

Bu məsələ Azərbaycan universitetləri üçün də aktualdır. Əgər ali təhsil sistemi əmək bazarı ilə sinxronlaşmırsa, rəqəmsallaşma yalnız texniki modernizasiya səviyyəsində qalacaq.

### Müəllim rəqəmsal transformasiyanın mərkəzində olmalıdır

Məqalədə diqqət çəkən əsas məqamlardan biri müəllim yükü ilə bağlıdır. Universitetlərdə müəllimlər çox zaman:

- *uzun mühazirələr,*
- *hesabatlar,*
- *inzibati işlər səbəbindən yaradıcı tədris metodlarına və elmi fəaliyyətə kifayət qədər vaxt ayıra bilmirlər.*

**Rəqəmsal texnologiyalar burada iki mühüm funksiyanı yerinə yetirə bilər:**

1. *rutin proseslərin avtomatlaşdırılması;*
2. *müəllimin fərdi mentorluq və interaktiv tədrisə daha çox vaxt ayırması.*

Bu isə "rəqəmsal pedaqogika" anlayışını ön plana çıxarır. Sadəcə texnologiyanı bilmək kifayət deyil; müəllim rəqəmsal mühitdə:

- *tələbə motivasiyasını,*
- *interaktivliyi,*
- *ölçmə və qiymətləndirməni idarə etməyi bacarmalıdır.*

### Elmi fəaliyyət üçün rəqəmsal universitet modeli

Məqalədə universitetlərin yalnız tədris deyil, həm də elmi tədqiqat mərkəzi olduğu vurğulanır. Bu baxımdan rəqəmsallaşma:

- *qrant idarəçiliyini,*
- *elmi məlumat bazalarını,*
- *beynəlxalq əməkdaşlığı,*
- *nəşr proseslərini,*
- *elmi analitikanı asanlaşdırmalıdır.*

Müasir dünyada universitetlərin rəqabət üstünlüyü artıq yalnız auditoriya sayı ilə deyil, data əsaslı elmi idarəetmə sistemi ilə müəyyən olunur.

Burada Finlandiya, Sinqapur, Yaponiya kimi ölkələrin təcrübəsi diqqət çəkir. Bu ölkələr rəqəmsal universitet modelini insan kapitalının inkişaf strategiyasına çevirməyi bacarıblar.

### Universitetlər üçün əsas risk: sistemsiz rəqəmsallaşma

Ən böyük problemlərdən biri müxtəlif platformaların bir-biri ilə inteqrasiya olunmamasıdır. Nəticədə:

- *məlumat parçalanır;*
- *qərarvermə zəifləyir;*
- *müəllim və tələbələr əlavə vaxt itirirlər.*

**Bu səbəbdən gələcəyin universiteti:**

- *vahid data platforması,*
- *süni intellekt əsaslı analitika,*
- *çevik təhsil modeli,*
- *rəqəmsal akademik dəstək sistemi üzərində qurulmalıdır.*

### Azərbaycan universitetləri üçün nəticələr və tövsiyələr

Azərbaycan ali təhsil sistemi də sürətlə rəqəmsallaşma mərhələsinə daxil olur. Lakin əsas məsələ texnologiyanın alınması deyil, onun effektiv idarə edilməsidir.

**Universitetlər üçün prioritet istiqamətlər:**

- *insan mərkəzli rəqəmsal strategiyanın hazırlanması;*
- *müəllimlərin rəqəmsal pedaqogika üzrə hazırlanması;*
- *vahid universitet data platformalarının yaradılması;*
- *tələbə analitikası və akademik monitorinq sistemlərinin qurulması;*
- *süni intellekt və data analitikasının idarəetməyə inteqrasiyası;*
- *elmi fəaliyyətin rəqəmsal ekosistemə keçirilməsi.*

### Nəticə

Rəqəmsal universitet yalnız texnologiyalarla təchiz edilmiş kampus deyil. Əsl rəqəmsal transformasiya:

- *tələbənin inkişafına,*
- *müəllimin yaradıcılığına,*
- *elmi fəaliyyətin effektivliyinə,*
- *universitet idarəetməsinin çevikliyinə xidmət etməlidir.*

Əgər texnologiya insanı yormursa, ona imkan yaradırsa – o zaman rəqəmsallaşma uğurludur.

Müasir universitetlərin əsas çağırışı da məhz budur: "texnologiya mərkəzli universitet" deyil, "insan mərkəzli rəqəmsal universitet" modeli qurmaq.



**Zahid Fərrux MƏMMƏDOV,**
**iqtisad elmləri doktoru, professor, Əməkdar müəllim**

Tədqiqat

## Universitetlər məzunlarında hansı bacarıqları inkişaf etdirməlidirlər?

**Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış "QS Quacquarella Symonds" şirkətinin qlobal miqyasda minlərlə işəgötürən təşkilat arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, ali təhsil müəssisələrinin məzunları ən çox fənn bilikləri ilə deyil, tənqidi düşüncə və mühakimə ilə mübarizə aparırlar. QS-ə görə problemlərin həlli və ünsiyyət ən geniş boşluqlar arasındadır. Süni intellekt yenidən formalaşdıqca işəgötürənlər getdikcə məzunlarda daha çox uyğunlaşma və ünsiyyət bacarıqlarına dəyər verirlər. İşəgötürənlərin universitet məzunlarında çatışmayan cəhətlər kimi təsvir etdiyi bacarıqlar nadir hallarda texniki və ya sektora xas olur. Bunlar məzunların öyrəndiklərini real iş yerlərində istifadə edə biləcəklərini müəyyən edən, ötürülə bilən, xüsusən də problemlər qeyri-müəyyən, vaxt sıxıntısı olan və süni intellekt tərəfindən getdikcə daha çox formalaşdırılan hallarda üzə çıxan qabiliyyətlərdir.**



### Universitetin hazırda inkişaf etdirməli olduğu beş bacarıq

İşəgötürənlərin bildirdiyi bacarıq boşluqları sənaye sahələri üzrə müqayisə edildikdə, aydın bir nümunə ortaya çıxır. Eyni bacarıqlar daim zirvəyə qalxır. Bunlar sənayeyə xas olmaqla yanaşı, məzunların öyrəndiklərini nə dərəcədə effektiv tətbiq etdiklərini müəyyən edən fundamental bacarıqlardır:

- *Tənqidi düşüncə və mühakimə,*
- *Problemin həlli,*
- *Ünsiyyət,*
- *Dözümlülük, çeviklik və uyğunlaşma,*
- *Emosional zəka və fərdlərarası bacarıqlar.*

**Tənqidi düşüncə və mühakimə** işəgötürənlərin vurğuladığı çatışmayan keyfiyyətlərin mərkəzində dayanır. Konsaltinq, təhsil və səhiyyə də daxil olmaqla, bütün sektorlarda işəgötürənlər bir çox məzunun mürəkkəb vəziyyətlərdə fərziyyələrə meydan oxumaqda, dəlilləri qiymətləndirməkdə və düzgün qərarlar qəbul etməkdə çətinlik çəkdiyini bildirirlər. Süni intellekt dərhal ağlabatan, lakin bəlkə də səhv və ya qeyri-müəyyən cavablar verməyi asanlaşdırdıqca, bu boşluq daha əhəmiyyətli hala gəlir.





**Problem həlli** QS məlumatlarında ən çox bildirilən bacarıq boşluqlarından biri hesab olunur. İşəgötürənlər məzunların nəzəri anlayışa malik olmadığını demirlər; onlar məzunların bu bilikləri rəqabət məhdudiyyətləri ilə qarışıq, vaxt tələb edən problemlərə tətbiq etməkdə çətinlik çəkdiklərini qeyd edirlər. Bu boşluq demək olar ki, hər bir sahədə özünü göstərir və bəzi sahələrdə, məsələn, maliyyədə problem həlli həm ən vacib bacarıqlar, həm də ən geniş boşluqlar arasında yer alır.

**Ünsiyyət** digər bir təkrarlanan narahatlıqdır. Texnologiya sektorunda əmək bazarının ən sürətlə böyüyən sahələrindən biri olan və 2025-ci il üçün İşlərin Gələcəyi Hesabatında dünyanın ən sürətlə böyüyən iş yerləri arasında süni intellekt mütəxəssisləri, böyük məlumat mütəxəssisləri və proqram təminatçıları yer tutur. Bu rollar texnologiya sektorunda işəgötürənlər arasında xüsusi yer tutur. Ünsiyyət bacarıqları bu sektora aid QS məlumatlarında ən geniş bacarıq boşluqlarından biri kimi göstərilir. Bir çox məzun akademik şəkildə ünsiyyət qura bilər, lakin iş yerində aydın yazmaq və danışmaqda çətinlik çəkir qısa, inandırıcı və fərqli auditoriyalara uyğun.

**Çeviklik və uyğunlaşma -** İşəgötürənlər, xüsusilə konsaltinq, maliyyə, hökumət, təhsil, istehsal və media kimi sürətlə inkişaf edən sektorlarda çeviklik və uyğunlaşma boşluqlarını da vurğulayırlar. Müasir iş dəyişiklik, qeyri-müəyyənlik və davamlı rəylə müəyyən edilir, lakin bir çox işəgötürən məzunların bu şərtlərə hazırlıqsız olduğunu düşünür. Təhsil sektorunun özündə də dayanıqlıq və çeviklik ən geniş bildirilən boşluqlar arasında görünür.

Nəhayət, məlumatlar, xüsusən də insan resursları, turizm, səhiyyə və qeyri-kommersiya sektoru kimi insanlarla əlaqəli sektorlarda *emosional zəka və şəxsiyyətlərarası bacarıqlardakı* çatışmazlıqlara işarə edir. Lakin bu emosional zəka və şəxsiyyətlərarası boşluqlar yalnız insanlarla əlaqəli rollarla məhdudlaşmır: onlar maliyyə, hökumət, müdafiə və enerji sahələrində də özünü göstərir. İşəgötürənlər əməkdaşlıq, empatiya, münaqişələrin idarə edilməsi və münasibətlərin qurulmasındakı zəif cəhətləri bildirirlər. İş daha çox komanda əsaslı hala gəldikcə və süni intellekt daha çox əməliyyat tapşırıqlarını yerinə yetirdikcə, işin insan tərəfi azalmayıb, əksinə fərqləndirici amili kimi çıxış edir.

### İşəgötürənlər əslində nə deyirlər?

QS-in Qlobal İşəgötürən Sorğusuna istinadən toxunduğumuz bu məlumatlar işəgötürənlərin məzun istedadından ən çox nəyə ehtiyac duyduqlarını, o cümlədən ən böyük bacarıq boşluqlarını harada gördüklərini əks etdirir. Dünya üzrə minlərlə işəgötürənin cavablarına əsaslanan sorğu müəssisələrin və universitet tədris proqramlarının əmək bazarında necə qəbul edildiyinə dair qlobal bir mənzərə təqdim edir və QS reytinqlərində istifadə edilən işəgötürənin reputasiya göstəricisi barədə məlumat verir.

Sənaye sahələri üzrə bacarıq boşluqlarına nəzər saldıqda, ardıcıl bir qanunauyğunluq ortaya çıxır: işəgötürənlərin əksər hallarda çatışmayan qabiliyyətləri yuxarıda vurğulanan beş bacarıqla çox uyğun gəlir. İşəgötürənlər əsasən bilik çatışmazlığına işarə etmirlər. Bunun əvəzinə, onlar bilikləri real iş yerlərində tətbiq etmək bacarığını – tənqidi düşünmək, problemləri həll etmək, aydın ünsiyyət qurmaq, mürəkkəblik qarşısında möhkəm qalmaq və başqaları ilə səmərəli işləməyi vurğulayırlar.

Bu fərq vacib hesab olunur. Fənn bilikləri və biznesin idarə edilməsi boşluqlar siyahısında daha aşağıda yer alır. İşəgötürənlər bu sahədə boşluqların iş yerində aradan qaldırılacağını bildirirlər. Onların daha az əmin olduqları hal rollar və sektorlar arasında bölünən ötürülə bilən qabiliyyətlərdir. Ümumilikdə, mesaj aydındır: universitetlərdən daha çox məzmun öyrətmək deyil, təlimi bu beş qabiliyyəti təcrübə, rəy və qiymətləndirmə yolu ilə inkişaf etdirən şəkildə dizayn etmək tələb olunur.

### Niyə bu bacarıqlar təsadüfən inkişaf etmir?

Bu bacarıqlar məzmun baxımından zəngin tədris planları, qiymətləndirmə modelləri vasitəsilə asanlıqla əldə edilmir. Tənqidi düşüncə, ünsiyyət və uyğunlaşma təcrübə yolu ilə inkişaf edir: qeyri-müəyyənliklə mübarizə aparmaq, rəy almaq, fənlər üzrə işləmək və uğursuzluqlar üzərində düşünmək. Təlim mühitləri tətbiqə əhəmiyyət vermədikdə, bu bacarıqlar akademik cəhətdən güclü tələbələr arasında belə inkişaf etməmiş qalır.

Generativ süni intellekt alətləri həm təhsildə, həm də iş yerlərində tətbiq olunduqca, məlumatı qiymətləndirmək, şərh və tətbiq etmək qabiliyyəti məlumatın özünü istehsal etməkdən daha vacib hala gəlir. Bunun universitetlərin təlimi necə qiymətləndirməsinə birbaşa təsiri var. Mühakiməyə üstünlük verən və real həyatda tətbiq edən tapşırıqlar işəgötürənlərin vurğuladığı çatışmayan bacarıqlarla daha çox uyğun gəlir.

### Bu, universitetlər üçün nə deməkdir?

İşəgötürənlərdən gələn mesaj aydındır. Universitetlərdə alınan dərəcənin gələcək dəyəri onun təsdiqlədiyi bilik həcmi ilə deyil, məzunların inkişaf etdirməsinə kömək etdiyi imkanlarla müəyyən ediləcək. 2026-cı ildə uğur qazanan universitetlər bacarıqların inkişaf etdirilməsinə əlavə bir dəyər kimi deyil, öyrənmənin özünün əsas dizayn prinsipi kimi yanaşan universitetlər olacaq – məzunların yalnız ixtisaslı deyil, həm də süni intellektlə, sürətlə dəyişən dünyada inkişaf etmək üçün zəruri olan bacarıq və səriştələrə malik olmalarını təmin edəcəklər.

**Oruc MUSTAFAYEV**

# Şagirdlərimizin medal sevinci

**"Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsinin qalibi olan şagirdlərimiz dünyanın ən nüfuzlu elm və mühəndislik müsabiqəsi hesab olunan Beynəlxalq Elm və Mühəndislik Sərgisində yüksək nailiyyət əldə ediblər.**

Sərgidə ölkəmizi təmsil edən Bakı şəhəri Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseyin 10-cu sinif şagirdi Banu İbrahimova və 9-cu sinif şagirdi Mikayıl Əhmədbəyli müsabiqədə bürünc medal qazanıblar.

Gəncə şəhəri Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta ümumtəhsil məktəbinin 10-cu sinif şagirdi Ömər Abdullayev və Gəncə şəhəri Əhməd Cavad adına 2 nömrəli tam orta ümumtəhsil məktəbinin 10-cu sinif şagirdi Səlman Sadıxzadə isə xüsusi mükafata layiq görülüblər.

Qeyd edək ki, beynəlxalq müsabiqə 9-15 may tarixlərində Amerika Birləşmiş Ştatlarının Arizona ştatının Feniks şəhərində keçirilib.





## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 29899 **Sifariş:** 678

**Məsul növbətçi:** O.Mustafayev




# Qazaxıstanın ilk süni intellekt universiteti hansı mütəxəssisləri yetişdirəcək?

**Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi süni intellekt sahəsində ilk tədqiqat universiteti olan Süni intellekt Tədqiqat Universitetində təklif olunacaq təlim sahələrini açıqladı.**

"Azərbaycan müəllimi" "Kazinform" saytına istinadən xəbər verir ki, yeni universitetdə süni intellekt, informasiya və kommunikasiya texnologiyaları, informasiya təhlükəsizliyi, AI+X və digər əlaqəli ixtisaslar üzrə təlimlər keçiriləcək. Təhsil proqramları süni intellekt texnologiyalarının müxtəlif iqtisadi sektorlarda tətbiqinə yönələcək.

Nazirlik qeyd edib ki, universitetin müəllim heyəti təhsil proqramlarının inkişafı və tələbə qəbulunun artması nəzərə alınmaqla mərhələli şəkildə formalaşdırılacaq. Yerli və beynəlxalq müəllim heyətinin, qonaq professorların, beynəlxalq akademik və peşəkar təcrübəyə malik mütəxəssislərin cəlb edilməsi planlaşdırılır.

Universitet həmçinin beynəlxalq tələbələri qəbul etməyi planlaşdırır. Buraya çoxdilli təhsil, təqaüd proqramları və beynəlxalq abituriyentlər üçün karyera rəhbərliyi daxildir.

Süni İntellekt Tədqiqat Universitetində bakalavr və magistr proqramları 1 sentyabr 2026-cı ildə başlayacaq. Doktorantura proqramlarının başlanması ilə bağlı daha ətraflı müzakirələr aparılacaq.

Tədqiqat universiteti Alem.ai tərəfindən idarə olunacaq. Tələbələr alem.cloud, AlemLLM və Astana Hub da daxil olmaqla milli süni intellekt infrastrukturuna çıxış əldə edəcəklər.

Elm və Ali Təhsil Nazirliyi həmçinin əlavə edib ki, tələbələrin yaşayış yeri ilə bağlı məsələlər müəyyən edilmiş prosedurlara uyğun olaraq, o cümlədən təhsil müəssisələri və yaşayış yerləri ilə müqavilələr vasitəsilə həll ediləcək.

**Oruc MUSTAFAYEV**

# Etibarsız sayılır

**Bakı şəhər** 87 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Usenko Andrey Serqeyeviçə verilmiş A-277095 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Mahmudova Şəhla Eladi qızına verilmiş B-194652 nömrəli bakalavr diplomu və diplomai əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli axşam məktəbini 1980-ci ildə bitirmiş Nağıyeva Göyçək İsmayıl qızına verilmiş Aİ-412693 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 25 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Məmmədov Ayhan Ramil oğluna verilmiş C-066925 nömrəli ümumi orta təhsil haqqında attestat və 2019-cu ildə verilmiş E-241784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Köçəsgər kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Ələsgərova (Murquzova) Kəmalə Mayıl qızına verilmiş A-003478 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Köçəsgər kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş İmamquliyev Sahil Ramin oğluna verilmiş E-628468 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Birinci Çaylı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Səfdərli Murad Elnur oğluna verilmiş C-299775 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** İmamqulubəyli qəsəbə tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qənbərova Səma Rasim qızına verilmiş A-614691 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Ələkli kənd tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Həsənov Pərviz İman oğluna verilmiş A-130936 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Üçtəpə kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Bədirov Səməd Əli oğluna verilmiş 120422 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Abdullayeva Almaz Arif qızına verilmiş B-492559 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Şeydayeva Xanım Fuad qızına verilmiş E-444085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Əsgərov Yasər Hüseyn oğluna verilmiş C-741858 nömrəli ümumi orta təhsil haqqında attestat və 2025-ci ildə verilmiş E-873317 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Məmmədli Tural Aydın oğluna verilmiş E-265226 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Rauf Ramiz oğluna verilmiş B-048910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Göyüşova Mahirə Göyçə qızına verilmiş 6019 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 8 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mamedova Fatma Hüseyn qızına verilmiş A-719441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci** tərəfindən 2025-ci ildə Mirzəzadə Rəcəb Seymur oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Cil kənd tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Əkbərova (Məmmədova) Sona Mütəllim qızına verilmiş 317991 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2001-ci ildə Əbdürəhimov Ramil Əbdürəhim oğluna verilmiş A-055660 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi, 2003-cü ildə verilmiş MNA-010323 nömrəli fərqlənmə magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Müşkür kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Əliyeva Aysel Qəhrəman qızına verilmiş A-172670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli Humanitar və Təbiət fənləri təmayüllü məktəb-liseyi 2013-cü ildə bitirmiş Mirzəyev Elmin Yaşar oğluna verilmiş A-245625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Quliyeva Siminbər İlqar qızına verilmiş VB-008157 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Şahin Lida Murad qızına verilmiş E-553157 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2025-ci ildə Sadıqzadə Roza Sultan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli tibb məktəbi** tərəfindən 1987-ci ildə İskəndərova Nuriyyə Mikayıl qızına verilmiş ЛТ-022989 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Xəlilzadə (Tapdıqlı) Şəlalə Etibar qızına verilmiş B-653013 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Nəhmədova Zərnişan Qubalı qızına verilmiş A-128981 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Abızadə Gülnar Vaqif qızına verilmiş E-835056 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mehdiabad qəsəbə** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Mürsəlov Bəhruz Oqtay oğluna verilmiş A-145989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Süleymanova Turan Nuşirəvan qızına verilmiş B-017444 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər ümumtəhsil orta internat məktəbi 2003-cü ildə bitirmiş Nağıyeva Zülfiyyə Bayram qızına verilmiş A-694009 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 135 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Vəliyeva Arzu Məhəmməd qızına verilmiş B-149787 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Cəfərov Elgün Mehman oğluna verilmiş B-018058 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Hüseynova Alidə Mahmud qızına verilmiş 2468 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci** tərəfindən 2023-cü ildə Baxışova Leyla Samir qızına verilmiş AA-183223 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Həsənov Vüsal Azər oğluna verilmiş A-406090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 148 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Əhmədov Amin Zahid oğluna verilmiş E-370390 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2017-ci ildə Əsədzadə Peyman Həbib oğluna verilmiş A-114594 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli Texniki və Humanitar fənlər təmayüllü məktəb-liseyi 1993-cü ildə bitirmiş Bağırova (İsiyeva) Şəlalə Əhmədağa qızına verilmiş 007463 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Əkbərova Şəhanə Həmdulla qızına verilmiş B-534449 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 1995-ci ildə Kemal Dadaşoğluna verilmiş AZ-004117 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 45 nömrəli tam orta məktəbi (Bakı şəhər 342 nömrəli tam orta ümumtəhsil məktəb) 2017-ci ildə bitirmiş Nəzərli Rəşad Sərvər oğluna verilmiş E-071844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 4 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Vəliyeva Elnurə Cavanşir qızına verilmiş 060323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2008-ci ildə Əliyev Rauf Akif oğluna verilmiş B-115131 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhəri Məişət Xidməti Kolleci** tərəfindən 2000-ci ildə Quluyeva Nəsibə Qara qızına verilmiş AB-II-045329 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2025-ci ildə Musazadə Mehdi Daşqın oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Hüseynova Güntəki Xasay qızına verilmiş B-342834 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin XII (qiyabi) sinfini 1999-cu ildə bitirmiş Şahverdiyeva (Fərəcova) Failə Məhərrəm qızına verilmiş 351236 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Əmrahova Aygün İlham qızına verilmiş 512331 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2021-ci ildə Rəhimzadə Qurban Eyvaz oğluna verilmiş C-101377 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Əliyev Nəriman Vüqar oğluna verilmiş E-356990 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci** tərəfindən 2024-cü ildə Oruczadə Əsma Etibar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dillər Universiteti Ümumi dilçilik kafedrasının əməkdaşları Əsgər Quliyev, Azad Məmmədov, Cəmil Babayev, İlahə Əliyeva, Solmaz Köçərli, Afaq Qəmbərova, Solmaz Əhmədova, Gülşən Ələkbərova universitetin İnsan resursları şöbəsinin müdiri Məmməd İsmayılova anası

**SƏDAQƏT xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.